# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

№ 153 Bakı şəhəri, 31 may 2021-ci il

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 29 dekabr tarixli 620 nömrəli Qərarı ilə təsdiq edilmiş "Sığorta ödənişinin verilməsi Qaydası"nda dəyişiklik edilməsi barədə**

"İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 23 fevral tarixli 273-VIQD nömrəli Qanununun tətbiqi və "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının 2017-ci il 30 iyun tarixli 765-VQ nömrəli Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 5 avqust tarixli 1569 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 9 mart tarixli 1295 nömrəli Fərmanının 3-cü hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 29 dekabr tarixli 620 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (II kitab), maddə 2565; 2018, № 12 (II kitab), maddə 2730; 2019, № 7, maddələr 1318, 1334; 2021, № 2, maddə 196, № 3, maddə 279) ilə təsdiq edilmiş "Sığorta ödənişinin verilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 4.4-cü bənddə "gəlirləri" sözü "əməkhaqları" sözü ilə əvəz edilsin.
2. 4.5-ci bənd ləğv edilsin.

***Əli ƏSƏDOV***
***Azərbaycan Respublikasının Baş naziri***